## Orxan Əzim



*1986-cı ildə Bakı şəhərində anadan olub. Mədəniyyət və İncəsənət Universitetinin məzunudur. Səkkiz ildir ki, peşəkar fotoqrafiya ilə məşğuldur. 2014-cü ildə "Köç" adlı, 2016-cı və 2019-cu illərdə isə Çernobl qəzasının otuz illiyinə həsr olunmuş fərdi sərgiləri keçirilib. Həmin sərgidən sonra Azərbaycan Fotoqraflar Birliyi tərəfindən "İlin sərgisi" mükafatına layiq görülüb. 2015-ci ildə Bakının Binəqədi rayonunda baş verən yanğın zamanı çəkdiyi foto (polisin uşağı yanğından xilas etdiyi an) 150-dən çox xarici KİV-də "Qəhrəman polis" başlığı ilə yayımlanıb. 2016-cı ildə "Mədəniyyətlərarası dialoq gənclərin gözü ilə" adlı beynəlxalq müsabiqədə 3-cü yerə layiq görülüb. 2019-cu ildə Suriyanın Hələb şəhərində müharibədən sonrakı həyatı və İmadəddin Nəsiminin məzarının fotolarını çəkib. 2019-cu ildə keçirilən "İtirilmiş şəhər və Nəsiminin məzarı" adlı fotosərgisi təşkil olunub. "İlin fotoqrafı 2019" tədbiri çərçivəsində "İtirilmiş nəfəs" layihəsinə görə Əli Qafarovun xatirəsinə təsis olunmuş "Müharibə fotoqrafı" ödülünə layiq görülüb. Orxan Əzimin müəllifi olduğu fotolar bir çox ölkədə qızıl medal və başqa mükafatlara layiq görülüb. "Gilavar" Azərbaycan Foto Klubunun üzvü olan fotoqraf Beynəlxalq Foto Sənəti Federasiyasının keçirdiyi foto müsabiqələrdə 2 qızıl, 1 gümüş medal, 1 diplom və 4 xüsusi lent olmaqla 8 mükafat əldə edib.*

**O.Ə.** "Fotoqrafiya mənim içində yaşadığım real dünyadır. Onu hobbi adlandırmazdım. İllərimi, həyatımı ona həsr etmişəm və hələ də belədir. Fotoqrafiya əlinə aparatı alıb sadəcə şəkil çəkmək deyil. O qədər incəlikləri var ki... Məsələn, yayda təxminən saat on iki ilə dörd arası, qışda isə bir ilə üç arası açıq havada çəkiliş üçün uyğun deyil. Bunun da səbəbi günəşin mərkəzdə olmasıdır ki, işıq bərabər olur və sən istədiyin görüntünü ala bilmirsən. Mən daha çox gün batana yaxın çəkməyi xoşlayıram. Yaxud çəkiliş səhər saatlarına nəzərdə tutulubsa, günortaya qədər çəkilişi yekunlaşdırmağa çalışıram.

Ən maraqlı işlərim 2016-cı ilə təsadüf edir. O vaxt Çernobla getdim. Çernoblda baş vermiş dəhşətli hadisənin 30 illiyi ilə bağlı Bakıda fərdi foto sərgimi təşkil etdim. 2017-ci ildə İraqa səfərim oldu. Orada mən bir çox şəhərlərdə oldum, o cümlədən Kərbəla şəhərini ziyarət etdim. Bu da mənim üçün uğurlu layihələrdən biri oldu. 2019-cu ildə Suriyanın Hələb şəhərində oldum. Burada mənə İmadəddin Nəsiminin məzarını, müharibədən sonrakı Suriyanı çəkmək nəsib oldu.

Son zamanlar "Gilavar" Azərbaycan Foto Klubu yaranıb. Azərbaycanlı fotoqraflara dəstək verir. Yerli fotoqrafların beynəlxalq aləmə, beynəlxalq foto yarış və sərgilərində iştirakına şərait yaradır, dəstək olur. Biz də maksimum çalışırıq ki, ölkəmizin adına daha çox uğur gətirək, ölkəmiz, fotoqrafiyamız haqqında müsbət imic formalaşdırmağa yardımçı olaq. Fotoqrafiyaya daha çox dəstək istərdik, daha çox beynəlxalq mediaya, beynəlxalq müsabiqələrə açılaq. Biz indi bunu fərdi yox, "Gilavar" Azərbaycan Foto Klubunun dəstəsiyi ilə edirik. Və bunun daha geniş vüsət alması gözəl olardı. Bu gün bizim əsas məqsədimiz beynəlxalq mediada nüfuzlu yer tutmağımızdır. Düzdür, olanda da olur, mütəmadi olması, beynəlxalq foto agentliklərinin marağını cəlb edəcək layihələr lazımdır. Burada dövlətin dəstəyi çox vacibdir. Çünki hazırkı Azərbaycan fotoqrafiyasının əvvəlki illərə nisbətən daha çox uğurları var məncə...



## Rüstəm Məhərrəmov

*15 avqust 1988-ci ildə Qubada anadan olub. Ali təhsilini Türkiyənin Orta Doğu Texniki Universitetində tamamladıqdan sonra "Bakı Metropoliteni" QSC-də aparıcı mütəxəssis işləyir. Amma uşaqlıqdan fotoqrafiyaya olan marağına görə yenidən bu sahəyə qayıdıb. Vəhşi təbiəti, heyvanlar aləmini həvəskar kimi çəkmək arzusu zamanla onu peşəkar səviyyəyə yüksəldib. 2018-ci ildə Türkiyədə fotoqrafiya ilə bağlı dörd ölkənin gənclərinə ustad dərsi deyib. Hazırda freelancer (sərbəst) fotoqraf olaraq çəkilişlərə davam edir.*



**R.M.** Səkkizinci sinifdən fotoaparatla tanış olmuşam. O vaxtdan həvəskar çəkilişlər edirdim, həmin dövrlərin fotoaparatları ilə şəkil çəkirdim. Ad günlərində, bayramlarda aparatı götürüb hamını lentin yaddaşına köçürürdüm. Təhsilimlə bağlı olaraq bir müddət ara vermək məcburiyyətində qaldım. Amma təxminən 26 yaşımda yenidən həvəs oyandı. Düzünü desəm, fotoqraf kimi bu ilə qədər heç bir maddi qazancım olmayıb. Bəzi beynəlxalq layihələrə qatılıram. Məsələn, onlardan biri, "Dünya vəhşi həyat fondu" (World Wildlife Fund) tərəfindən həyata keçirilən "Cənubi Qafqazda Ekodəhlizlərin Təşviqi Proqramı"dır. Həmin layihədə müqavilə ilə iştirak etdim. Amma təəssüf ki, təbiət fotoqrafiyası bizdə elə də inkişaf etmədiyindən, işinlə nə qədər professional şəkildə məşğul olursan ol, yenə də həvəskar kimi baxırlar. Bir də fotoqrafiya deyəndə ilk olaraq ağıla toy, "love story", moda fotoqrafiyası gəlir. Bəzən professionallıq toy çəkməklə, aparatının böyüklüyü, bahalılığı ilə ölçülür.



Özümə söz vermişəm ki, toy və başqa məclislər çəkməyəcəm. Çünki insanlar istəklərimə sərhəd qoyur. Əgər bu, mənim işimdirsə, mənim zövqümə uyğun olmalıdır. Kiminsə işimə qarışmasını, yönləndirməsini sevmirəm. Amma bu sözlərimlə əsla heç kəsi incitmək istəmərəm, sadəcə bu mənim görüşümdür. Təbiətin də özünəməxsus şıltaqlıqları var. Tutaq ki, baxırsan hava çox yaxşıdır, ulduz görünür, düşünürsən ki, buradan qəşəng şəkil çəkmək mümkündür. Məkanı seçirsən, aparatını götürüb gəlirsən, gözləyirsən ki, saat 10-da ulduzlar görünəcək, sən də çəkəcəksən. Hazırlaşdığın vaxt birdən havada buludlar peyda olur. Və oturub gözləyirsən ki, buludlar çəkilsin. Amma çəkilmir, məcburən yığışıb gedirsən. Məsələn, təbiətdə bir mənzərə görürsən, anidən onu tutmağa çalışırsan. Təəssüf ki, gözünlə gördüyünü, aparatla tuta bilmirsən. Vəhşi təbiət isə lap şıltaqdır. Gedirəm, saatlarla gözləyirəm ki, heyvan gələcək və onu çəkəcəyəm. Heyvan gəlir və çəkirsən də, amma istədiyin kadr alınmır. Məsələ orasındadır ki, heyvana deyə bilmirsən, belə dur, belə bax... O özü üçün gəlir, sənə baxır və anidən gedir. Kadrı tuta bildinsə, nə gözəl, tuta bilmədinsə, gözləməyə davam. İstədiyim kadrı tutana qədər çəkirəm. Bu dəqiqə arxivdə saysız-hesabsız heyvan şəkilləri var. Çəkiliş prosesi xeyli vaxt aparır. Proses kadrdan asılı olaraq dəyişir. 1 dəqiqədən 5 saata qədər dəyişir. Yəni, heyvanın gəlməyi, onda istədiyim pozanı tutmağım müəyyən vaxt aparır. Kiçik bir quş kadrı üçün 3 saat vaxt sərf etdim. Özü də yaş qumun üzərində oturmuşdum. Bala ceyranları çəkmək üçün isə 4 saat yarım vaxtım getdi. Mən onları süd içən yerdə çəkmək istəyirdim, onlar isə ora-bura qaçırdılar. Kadrın sayına gəlincə isə 500-1000 arası dəyişir. Bu say arasından da 10-15 əla, 50-90 arası normal şəkil çıxır. Qalanı silinir.

Bu işin içində olan adam kimi demək istərdim ki, təbiət fotoqrafiyası sahəsini seçənlər birincisi, təhlükəsizlik baxımından bütün tədbirləri alsınlar. Yola çıxarkən özləri ilə ilk yardım çantası götürsünlər. Gedəcəkləri məkanı əvvəlcədən araşdırsınlar. Orada hansı təhlükə ilə qarşılaşa biləcəklərini nəzərə alsınlar. Geyimlərinə xüsusi fikir versinlər. Və ən əsası, gedəcəkləri yeri kiməsə əvvəlcədən desinlər. Yəni, xəbər etsinlər ki, mən filan yerdə olacağam. Çünki təbiətdə olduqca nadir hallarda telefon "çəkir", şəbəkə olmur, gözlənilməzliklər isə kifayət qədərdir. ❖

**Zöhrə Əliyeva**